**“Qadın sahibkarlığının inkişafı” layihəsi çərçivəsində Azərbaycanda 10-11-ci sinif şagirdi olan məktəbli qızların respublikamızda sahibkarlıq haqqında məlumatlığının öyrənilməsi məqsədilə Bakı şəhərinin məktəblərinin 213 (iki yüz on üç) 10-11-ci sinif şagirdi olan məktəbli qızlar arasında keçirilmiş üzbəüz rəy sorğusunun nəticələri ilə əlaqədar**

# HESABAT

09 – 17 dekabr 2019-cu il
Bakı şəhəri

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Xülasə ........................................................................................ | 4 |
| Rəy soröusunun nəticələri ...................................................... | 5 |
| Əlavə 1. Sorğu anketi ................................................................ | |

**“Qadın sahibkarlığının inkişafı” layihəsi çərçivəsində Azərbaycanda 10-11-ci sinif şagirdi olan məktəbli qızların respublikamızda sahibkarlıq haqqında məlumatlığının öyrənilməsi məqsədilə Bakı şəhərinin məktəblərinin 200 (iki yüz) 10-11-ci sinif şagirdi olan məktəbli qızlar arasında keçirilmiş üzbəüz rəy sorğusu**

## XÜLASƏ

“Qadın sahibkarlığının inkişafı” layihəsi çərçivəsində Azərbaycanda 10-11-ci sinif şagirdi olan məktəbli qızların respublikamızda sahibkarlıq haqqında məlumatlığının öyrənilməsi məqsədilə Bakı şəhərinin məktəblərinin 200 (iki yüz) 10-11-ci sinif şagirdi olan məktəbli qızlar arasında keçirilmiş üzbəüz rəy sorğusu 09 – 17 dekabr 2019-cu il tarixində həyata keçirilmişdir.

Sorğu Bakı şəhərinin məktəblərini əhatə edir. Sorğu keçirilmiş rayonlar, məktəblər və respondentlərin sayı üzrə bölgü aşağıdakı cədvəldə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, ümumilikdə sorğuda 223 məktəbli qız iştirak etmişdir.

**Cədvəl 1. Rayonlar, məktəblər və respondentlərin sayı**

| Rayon/ Şəhər | Məktəblər | Respondentlərin sayı |
|---|---|---|
| Binəqədi | 284, 299 | 29 |
| Nərimanov | 45 | 1 |
| Nizami | 328 | 10 |
| Qaradağ | 223 | 2 |
| Sabunçu | 252, 71, 198, 259 | 56 |
| Suraxanı | 280 | 18 |
| Xətai | 194, 165, 55, 58 | 91 |
| Xəzər | 124, 230 | 2 |
| Xırdalan şəhəri | 21 | 5 |
| Abşeron rayonu | 1 | 9 |
| 10 rayon | 18 məktəb | 223 sorğu |

Sorğunun həyata keçirilməsi, lazımi məlumatların toplanması, sorğu nəticəsində əldə edilmiş məlumatların xüsusi statistik proqram (SPSS) ilə işlənməsi və nəticələrin analizi prosesində yüksəkixtisaslı mütəxəssislər iştirak etmişdir.

# RƏY SORĞUSUNUN NƏTICƏLƏRI

Qeyd edildiyi kimi rəy sorğusunda 223 respondent iştirak etmişdir.

**1. Məktəbi bitirdikdən sonra sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyətindəsinizmi?**

Sual sorğuda iştirak etmiş 223 respondent tərəfindən cavablandırılmışdır.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Bəli | 133 | 59,6 |
| Xeyr | 78 | 35,0 |
| Cavab verməkdə cətinlik cəkirəm | 12 | 5,4 |
| Cəmi | 223 | 100,0 |

Respondentlərin 59,6%-i və ya 133 respondent sualı müsbət, 35,0% və ya 78 respondent isə mənfi cavablandırmışdır. Daha 5,4% və ya 12 respondent bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

**2. Bu niyyətin kökündə hansı səbəb durur?**

Bu sual 1-ci sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Ümumilikdə sualın cavablandırılmasında 133 respondent iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 145 respondent 204 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 88 respondent, 2 cavab variantı – 24 respondent, 3 cavab variantı – 16 respondent və 4 cavab variantı – 5 respondent.

| | | **Sayı** | **Faiz** |
|---|---|---|---|
| 1 | Öz taleyimi özüm həll etmək istəyirəm. Hansısa dövlət qurumundan və ya özəl şirkətdən asılı olmaq istəmirəm | 68 | 33,3 |
| 2 | Məşhur biznes-xanımlar kimi olmaq istərdim | 40 | 19,6 |
| 3 | Xeyriyyəçilik imkanlarımın olması arzusundayam | 39 | 19,1 |
| 4 | Yaxşı qazanıb varlı olmaq istərdim | 34 | 16,7 |
| 5 | Ailədə və ya qohum, tanışlar arasında uğurlu biznesmenlər var. Onlara oxşamaq istərdim | 22 | 10,8 |
| 6 | Qazancımı ferqlı elde etmek isdeyırem | 1 | 0,5 |
| | **Cəmi respondent sayı** | **133** | 100 |

**3. Hansı bizneslə məşğul olmaq istərdiniz?**

Sualın cavablandırılmasında 133 respondent iştirak etmişdir.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Ticarət | 42 | 31,6 |
| Xidmət | 59 | 44,4 |
| İstehsal | 32 | 24,0 |
| Cəmi | 133 | 100 |

Respondentlərin 44,4%-i və ya 59 respondent Xidmətlə, 31,6%-i və ya 42 respondent Ticarətlə və daha 24,1%-i və ya 32 respondent İstehsalla məşğul olmaq istəyini bildirmişdir.

**4. Biznes fəaliyyətinin əsasları barədə məlumatınız (biznes necə qurulur, bazar necə araşdırılır, satış necə təşkil olunur və s.) varmı?**

Sual 133 respondent tərəfindən cavablandırılmışdır.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Bəli | 75 | 56,4 |
| Xeyr | 58 | 43,6 |
| Cəmi | 133 | 100,0 |

Sualı cavablandırmış respondentlərin 56,4%-i və ya 75 respondent Bəli, 43,6%-i və ya 58 respondent Xeyr cavab variantlarını seçmişdir.

**5. Biznes fəaliyyətinin əsasları barədə məlumatı haradan əldə etmisiniz?**

Sualın cavablandırılmasında 75 respondent iştirak etmişdir.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Kütləvi informasiya vasitələrindən | 40 | 53,3 |
| Valideynlərimdən | 25 | 33,3 |
| Məktəbdən | 4 | 5,3 |
| Xüsusi dərslərdən (Məktəbdən kənar) | 6 | 8,0 |
| Cəmi | 75 | 100 |

53,3% və ya 40 respondent bu məlumatı KİV-dən, 33,3% və ya 25 respondent Valideynlərindən, 8,0% və ya 6 respondent Xüsusi dərslərdən (məktəbdən kənar) və 5,3% və ya 4 respondent Məktəbdən əldə etdiyini bildirmişdir.

**6. Biznesmen olmaq istəməməyinizin səbəbi nədir?**

Bu sual 1-ci sualda Xeyr cavab variantını seçmiş respondentlərə verilmişdir. Sualın cavablandırılmasında 78 respondent iştirak etmiş və aşağıdakı cavablar əldə edilmişdir.

| Cavab | Cavab sayı | Faiz |
|---|---|---|
| Dövlət qurumunda məmur olmaq istərdim | 9 | 11,5 |
| Elmlə məşğul olmaq arzusundayam | 23 | 29,5 |
| İdmançı olacağam | 3 | 3,8 |
| Mühəndis olmaq istərdim | 3 | 3,8 |
| Həkim olmaq istəyirəm | 4 | 5,1 |
| Özəl şirkətdə çalışmaq istərdim | 19 | 24,4 |
| İncəsənət sahəsində çalışmaq istərdim | 8 | 10,3 |
| Evdar xanım olmağa üstünlük verirəm | 1 | 1,3 |
| Jurnalistliyə hazırlaşıram | 1 | 1,3 |
| Pilot olmaq istəyirəm | 1 | 1,3 |
| Müəllim olmaq istəyirəm | 1 | 1,3 |
| Öz ixtsasıma uyğun deyil | 1 | 1,3 |
| İxtisasıma uyğun işləyəcəm | 1 | 1,3 |
| Tibb bacısı olmaq istəyirəm | 1 | 1,3 |
| Vəkil olmaq istəyirəm | 1 | 1,3 |
| Olmaq istəmir | 1 | 1,3 |
| Cəmi | 78 | 100,0 |

**Əlavə 1. Rəy Sorğusu Anketi**

**ƏZİZ GƏNC XANIMLAR!**

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu ABŞ İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən "Qadın sahibkarlığının inkişafı" layihəsi çərçivəsində Azərbaycanda 10-11-ci sinif şagirdi olan məktəbli qızların sahibkarlıq fəaliyyətinə həvəslərinin öyrənilməsi məqsədilə sorğu keçirir. Bu sorğunun nəticələri əsasında işlənib hazırlanmış tövsiyələr hökumətə, parlamentə və ictimaiyyətə təqdim olunacaq.

**Sizdən xahiş edirik ki, bu anketin suallarına cavab verəsiniz. Sizin cavablarınız heç yerdə açıqlanmayacaq və yalnız bütün sorğu iştirakçılarının cavablarının ümumiləşdirilməsində istifadə ediləcək.**

Sorğunu keçirənlər və layihə rəhbəri ilə əlaqə yaratmaq üçün telefon nömrəmizi (012-447-07-16) və E-mail ünvanımızı: info@sme.az nəzərinizə çatdırırıq.

**Tədqiqatda iştirakınıza görə Sizə əvvəlcədən təşəkkür edirik.**

* * *

**ANKET № ______**

**Respondentin A.S.A. ________________________________**
**Məktəb № ____________ Sinif ______**

**1. Məktəbi bitirdikdən sonra sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyətindəsinizmi?**

1) Bəli
2) Xeyir
3) Cavab verməkdə çətinlik çəkirəm

**"Xeyr" cavab variantını seçmiş respondentlərlə 6-cı sual verilir və sorğu başa çatdırılır. "Bəli" cavab variantını seçmiş respondentlərə 2-5-ci suallar verilir və sorğu başa çatdırılır.**

**2. Bu niyyətin kökündə hansı səbəb durur? (bir neçə cavab variantı seçilə bilər)**

1) Yaxşı qazanıb varlı olmaq istərdim
2) Ailədə və ya qohum, tanışlar arasında uğurlu biznesmenlər var. Onlara oxşamaq istərdim
3) Məşhur biznes-xanımlar kimi olmaq istərdim

4) Öz taleyimi özüm həll etmək istəyirəm. Hansısa dövlət qurumundan və ya özəl şirkətdən asılı olmaq istəmirəm
5) Xeyriyyəçilik imkanlarımın olması arzusundayam
6) Digər səbəb ______________________________________________

**3. Hansı bizneslə məşğul olmaq istərdiniz?**

a İstehsal (hansısa məhsul növü)
b Xidmət (gözəllik salonu, dərzi, konsaltinq və s.)
c Ticarət (mağaza, ictimai iaşə və s.)

**4. Biznes fəaliyyətinin əsasları barədə məlumatınız (biznes necə qurulur, bazar necə araşdırılır, satış necə təşkil olunur və s.) varmı?**

1) Bəli
2) Xeyr

**"Xeyr" cavab variantını seçmiş respondentlərlə sorğu başa çatdırılır. "Bəli" cavab variantını seçmiş respondentlərə 5-ci sual verilir və sorğu başa çatdırılır..**

**5. Biznes fəaliyyətinin əsasları barədə məlumatı haradan əldə etmisiniz?**

1) Valideynlərimdən
2) Məktəbdən
3) Xüsusi dərslərdən (Məktəbdən kənar)
4) Kütləvi informasiya vasitələrindən
5) Digər: ______________________________________________

**6. Biznesmen olmaq istəməməyinizin səbəbi nədir?**

1) Dövlət qurumunda məmur olmaq istərdim
2) Özəl şirkətdə çalışmaq istərdim
3) İncəsənət sahəsində çalışmaq istərdim
4) Yazıçı olmaq arzusundayam
5) Mühəndis olmaq istərdim
6) Elmlə məşğul olmaq arzusundayam
7) İdmançı olacağam
8) Jurnalistliyə hazırlaşıram
9) Evdar xanım olmağa üstünlük verirəm
10) Digər ______________________________________________

**SORĞUNUN SONU**